# TWINNING NEWSLETTER

**Biznes statistikası sahəsində məlumatların toplanması, işlənilməsi, təhlili, nəşri və yayımlanması işlərini gücləndirmək məqsədilə Dövlət Statistika Komitəsinə və İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinə dəstək**

1-ci buraxılış, Oktyabr 2020-ci il

## Mövzular

- ✓ Layihənin açılış konfransı
- ✓ Layihənin İdarəetmə Komitəsinin ilk iclası
- ✓ Komponent 1 üzrə İş Planı

## Layihə barədə

Aİ tərəfindən maliyyələşdirilən bu Tvinninq layihəsi (AZ/16/ENI/ST/01/19 (AZ/53)) Finlandiyanın Statistika İdarəsinin rəhbərlik etdiyi və Litvanın Statistika Departamenti və Niderland Mərkəzi Statistika Bürosunun kiçik tərəfdaş kimi daxil olduğu **konsorsium** tərəfindən həyata keçirilir. Həmçinin Danimarkanın Statistika İdarəsi və Finlandiyanın İctimai İdarəetmə İnstitutu layihəyə əlavə dəstək təmin edir.

**Əsas benefisiar təşkilatlar** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, İqtisadiyyat Nazirliyinin Dövlət Vergi Xidməti və Kiçik və Orta Biznesin İnkişafı Agentliyidir. Tvinninq layihəsinin **ümumi məqsədi** Azərbaycanda özəl sektorun/kiçik və orta biznesin fəaliyyətinə dair məlumatların toplanması, işlənilməsi, təhlili, nəşri və yayımlanması sahəsində yerli mütəxəssislərin potensialının artırılmasından ibarətdir.

**Nəşr etdi:** Tvinninq ofisi
**Ünvan:** İnşaatçılar prospekti 81, Bakı şəhəri, AZ 1136
Tel: +994 12 377 10 70
**Veb-səhifə:** http://www.stat.fi/aztwinning
**Bizi izləyin:**



## Layihə xəbərləri

Tvinninq layihəsinin **açılış konfransı** 29 sentyabr 2020-ci il tarixində uğurla keçirilmişdir. Telekonfrans formatında keçirilən bu tədbirdə Finlandiyanın Statistika İdarəsi, Litvanın Statistika Departamenti, Niderland Mərkəzi Statistika Bürosu, Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi, Layihələrin İdarə Edilməsi Ofisi, Aİ-nin Azərbaycan Nümayəndəliyinin nümayəndələri, eləcə də digər qurumların əməkdaşları iştirak etmişlər.

Açılış tədbirində çıxış edən natiqlər və təqdimatçılar Azərbaycanda özəl sektorun fəaliyyətinin ölçülməsi üçün biznes statistikası sahəsində potensialın artırılması baxımından layihənin önəmli olduğunu vurğulamışlar.

**Layihənin İdarəetmə Komitəsinin** 8 oktyabr 2020-ci il tarixində Webex telekonfrans platforması vasitəsilə keçirilmiş ilk iclasında aşağıdakı mövzular müzakirə edilmişdir:

- Kommunikasiya və İşıqlandırma Planının və büdcənin təsdiqlənməsi
- İlkin İş Planının təsdiqlənməsi
- Layihənin növbəti mərhələsində həyata keçirilməsi planlaşdırılan fəaliyyətlərin təqdimatı və müzakirəsi

İdarəetmə Komitəsinin üzvləri layihənin ilk rübü haqqında fikirlərini bölüşmüş və nəticələrdən razılıqlarını ifadə etmiş, həmçinin qarşıya çıxan çətinliklərə dair müzakirələr aparmışlar.

Hal-hazırda mövcud çətinliklərə baxmayaraq bütün maraqlı tərəflərin səyləri nəticəsində layihə çərçivəsində işlər uğurla davam etdirilir.

**Layihə çərçivəsində ilk fəaliyyət** 2020-ci ilin sentyabr-oktyabr aylarında baş tutmuşdur. Fəaliyyətin məqsədi layihənin icra mərhələsində 1-ci Komponentin bütün nəticələri üzrə həyata keçiriləcək tədbirlərin planlaşdırılması olmuşdur. Qısamüddətli ekspertlər cənab Timo Laukkanen (Finlandiya Statistika İdarəsi), xanım Daliutė Kavaliauskienė (Litva Statistika Departamenti) və cənab Fred Demollin (Niderland Mərkəzi Statistika Bürosu) benefisiar müəssisələrin əməkdaşları ilə birlikdə cari vəziyyəti nəzərdən keçirmişlər. Altı distant sessiyadan sonra Nəticə 1, 2 və 3 üzrə fəaliyyətlərin siyahısı və müvafiq indikatorlar hazırlanmış və benefisiar müəssisələr tərəfindən təsdiqlənmişdir.

Tezliklə Komponent 2 və 3 üzrə fəaliyyətlərin keçirilməsi nəzərdə tutulur.



Bu nəşrin məzmunu Avropa İttifaqının rəsmi mövqeyini əks etdirmir

Layihə Avropa İttifaqı tərəfindən maliyyələşdirilir